# Samuxda "Konstitusiya və Suverenlik ili" çərçivəsində tədbir olmuşdur

Rayon icra hakimiyyətinin və Ombudsmanın Qərb Regional Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə Samux RİH başçısının müavini Kəmalə Xəlilova açmışdır.



Bildirilmişdir ki, 2025-ci il Prezident İlham Əliyevin sərəncamı ilə ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Bu il 1995-ci il noyabrın 12-də qəbul olunmuş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsinin 30 illiyi və 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi Zəfərin 5-ci ildönümüdür. Məhz bu baxımdan "Konstitusiya və Suverenlik İli"nin dövlətçilik tariximizin daha dərindən öyrənilməsində xüsusi əhəmiyyəti var. Dövlət başçısı tərəfindən imzalanan sərəncam ölkəmizin keçmişi, bu günü və gələcəyi üçün xüsusi məna ifadə edərək, hüquqi dövlətçilik və suverenlik dəyərlərinin yeni qlobal çağırışlar əsasında formalaşdırılması üçün yeni imkanlar yaratmışdır.

Ombudsmanın Qərb Regional Mərkəzinin rəhbəri Səbuhi Abbasov isə çıxışında demişdir ki, istənilən dövlətin mövcudluğu və inkişafı dövlət hakimiyyətinin təşkilinə dair əsas konstitusiya prinsiplərinin mövcudluğu ilə şərtlənir: "Hər bir hüquqi dövlətin konstitusiyası bu təməl prinsipləri müəyyən edərək, insan hüquqları və azadlıqlarının müdafiəsi, hakimiyyətin bölgüsü və digər bir sıra mühüm hüquqi başlanğıcları özündə ehtiva edir".

Tədbirin sonunda Azərbaycan Respublikası Konstitusiyasının xüsusiyyətləri, konstitusiya ilə müəyyən olunmuş əsas insan hüquq və azadlıqları və həmin hüquqların ölkədaxili və beynəlxalq müdafiəsi mexanizmləri, insan hüquqlarının müdafiə mexanizmi kimi ombudsman təsisatının fəaliyyət istiqamətləri barədə iştirakçılara ətraflı məlumat verilmiş, onları maraqlandıran suallar cavablandırılmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 14 fevral (№ 33).- S.17.